

# Qərinə Kərimova

*Müğənni (messo-soprano). Azərbaycan Respublikasının xalq artisti (1998). Q.Kərimova 1990-cı ildən Azərbaycan Dövlət Opera və Valet Teatrının solistidir. O, opera səhnəsində Aida, («Aida» C.Verdi), Çio-Çio-san, Toska («Çio-Çio-san», «Toska» C.Puççini), Mikaella («Karmen», C.Bize), Nigar («Koroğlu» Ü.Hacıbəyov) və s. yaddaqalan obrazlar yaratmışdır. Müğəninin repertuarına romanslar, xalq mahnıları və Azərbaycan bəstəkarlarının əsərləri daxildir. 1997-ci ildə Bakıda keçirilmiş vokalçıların Bülbül adına I Beynəlxalq Müsabiqəsinin 3-cü mükafatına layiq görülmüşdür. Q. Kərimova Böyük Teatra dəvət almış, C.Puççininin «Toska» operasında Florin Toska partiyasını böyük müvəffəqiyyətlə ifa etmişdir. Mətbuatda çıxmış «Böyük Teatrda böyük müvəffəqiyyət» adlı məqalədə deyilirdi: «Qərinə Kərimovanın ünvanına axan gur alqışlar və «bravo» sədaları həmvətənlərimizin qazandığı uğurların ən yüksəyidir. Qərinə Kərimova nəinki Böyük Teatrda klassik opera partiyasını özünəməxsus sənətkarlıqla yaratmış, o həm də Toska obrazında əsl qadın məhəbbətinin satqınlıq, ölüm və faciələrə gətirib çıxardığını göstərmişdir. Bu isə az əhəmiyyətli deyildir».*





də qorunan əlyazmalar içində "Çənlibel xoru"nun ilkin variantı da vardır.

Klassik opera janrının ən mükəmməl bəstəkarlıq nümunəsi olmuş "Koroğlu" operası istər sadə insanlar, istər hazırlıqlı meloman dinləyicilərin bütün növü üçün anlaşıqlı, zövqverən musiqilərlə zəngindir. Opera tez bir zamanda xalqın dilinin əzbəri oldu.

Görkəmli rus musiqişünası Viktor Vinoqradov Moskvadan Bakıya ilk gəlişini xatırlayaraq yazırdı: "Mən qatardan düşüb şəhərə çıxmaq istəyərkən, dəmiryolu vağzalı ətrafındakı bir çəkməçi köşkünün yanından keçəndə çəkməçinin oxuduğu bir mahnı diqqətimi cəlb etdi:

***Koroğlunun bir atı var,***
***Qırat deyərlər adına...***

Maraqlandım. Çəkməçi həvəslə bu mahnıda bəhs edilən Koroğlu, Qırat haqqında söhbət açdı. Beləliklə, Üzeyir Hacıbəyovun "Koroğlu" operası ilə tanışlığım elə vağzaldan başladı..."

Azərbaycan xalqının dilinin əzbəri olan "Koroğlu" operasının ən böyük zəfəri, təntənəsi 1938-ci ilin aprelində Moskvada, Azərbaycan incəsənəti dekadası günlərində oldu. SSRİ paytaxtı Moskvanın tələbkar dinləyiciləri, dövlət və siyasət xadimləri, qabaqcıl elm, incəsənət adamlarının qarşısında üç dəfə göstərilmiş "Koroğlu" operası hər kəsdə heyrət, sevinc, məmnunluq dolu hisslər yaşatdı. Ölkə rəhbəri İ.V. Stalin adəti üzrə bütün tamaşalara bir dəfə baxdığı halda, "Koroğlu"ya iki dəfə tamaşa edib, alqışladı. Dekadanın sonunda Kremldə Azərbaycan incəsənət xadimlərinin şərəfinə verilən qəbul-banketdə İ.V.Stalin özü Ü.Hacıbəyovun şərəfinə badə qaldırdı və "Koroğlu" kimi daha "iki cüt" opera yazmağı tövsiyə etdi. Bütün bunlar dahi bəstəkarın, eləcə də Azərbaycan opera sənətinin "imzalar içində" özünü təsdiq etməsi demək idi.

1937-ci il sentyabrın 26-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin xüsusi iclasında "Koroğlu" operası Sovet Azərbaycanın opera sənətinin böyük nailiyyəti kimi qiymətləndirilir, Ü.Hacıbəyova Azərbaycan SSR-i xalq artisti fəxri adı və 25.000 manat mükafat verilməsi qərara alınır.

Moskvada keçirilən dekada günlərində isə Ü.Hacıbəyov SSRİ xalq artisti fəxri adına və "Lenin" ordeninə layiq görülür. Dekadadan Bakıya qayıtdıqdan sonra isə onu yeni vəzifələrə - Azərbaycan Dövlət Konservatoriyasının rektoru və Bəstəkarlar İttifaqının sədri kimi məsul vəzifələrə irəli çəkdilər.

Tezliklə Moskvada Böyük Teatrda "Koroğlu" operasını öz repertuarına salmaq barədə qərar qəbul etdi. Operanın mətninin tərcüməsi tanınmış rus şairi Ryurik Lvlevə həvalə olundu. Bəstəkar isə Böyük Teatr üçün operanın mükəmməl partiturasını hazırlamağa başladı. (Bu nüsxələr bəstəkarın ev-muzeyində qorunur). "Koroğlu"nun rus dilinə tərcüməsi Bakı Opera Teatrının rus bölməsində də sevinclə qarşılandı. Opera tezliklə A.A.Drozdov (Koroğlu), V.A.Nikovski (İbrahim xan), K.L.Knijnikov (Həsən xan) kimi görkəmli vokalçıların ifasında öz yeni təfsirini tapdı. Bütün ölkənin musiqi aləmi "Koroğlu"dan bəhs edir, müxtəlif qəzetlər bu opera barədə, onun müəllifi haqda yazılar dərc edirdilər.

"Koroğlu" operası 1939-cu ildə Aşqabadda türkmən dilində, 1942-ci ildə Yerevanda erməni dilində, 1950-ci ildə Daşkənddə özbək dilində tamaşaya qoyularaq uzun illər həmin teatrların repertuarında yaşadı. 1979-cu ildə Azərbaycan bəstəkarlarının V qurultayına qonaq gələn Türkmənistan Opera Teatrının baş dirijoru Nuri Muxatov (SSRİ xalq artisti, bəstəkar Vəli Muxatovun qardaşı) bu sətirlərin müəllifinə "Koroğlu" operasına türkmən dinləyiciləri tərəfindən necə sevildiyindən ağız dolusu danışmışdı.

Operanın klaviri 1952, 1970, partiturası 1985-2005-ci illərdə nəşr olunmuş, AOBT-nın qastrolları zamanı opera Təbriz, Kiyev, Peterburq, Tiflis və başqa şəhərlərin səhnələrində göstərilmişdi. 400-dən artıq Koroğlu obrazında səhnəyə çıxan ölməz Bülbüldən sonra bu rolda Lütfiyar İmanov, İbrahim Cəfərov, Xanlar Haqverdiyev, Adil Məlikov, Nemət Sinhəbibi, Ülvi Qılınc, Həsən Enami kimi sənətkarlar öz istedadlarını nümayiş etdirmişlər. Müxtəlif illərdə Firəngiz Əhmədova, Fidan Qasımova, Qərinə Kərimova, Xədicə Babayeva, Zemfira İsmayılova və digər qadın müğənnilərimiz Nigar rolunda məharətlə çıxış etmişlər. Operanın tamaşalarına müxtəlif illərdə quruluş verən İsmayıl Hidayətzadə, Soltan Dadaşov, Mehdi Məmmədov, Firudin Səfərov kimi rejissorlar, Əşrəf Həsənov, Niyazi, Rauf Abdullayev, Kazım Əliverdibəyov kimi dirijorlar, Əhdəm Sultanov, Tahir Salahov, Mikayıl Abdullayev, Kazım Kazımzadə kimi rəssamlar cəlb olunaraq öz parlaq istedadlarını göstərmişlər.

"Koroğlu" operasının adı nəşr olunmuş bir çox musiqi ensiklopediyalara və opera haqda ensiklopedik kitablara daxil edilmişdir. Bu opera təkcə Azərbaycanın deyil, bütün dünyanın ən parlaq, mükəmməl operaları ilə bir sırada durur.

Bu da bir həqiqətdir ki, "Koroğlu" operasının yüksəldiyi ucalıqda ikinci bir operamız hələ də yoxdur. Öz zirvəsində məğrur və sarsılmaz bir qayətdə qərar tutan "Koroğlu" illər ötdükcə daha da təravətlənir, sanki yenidən dərk edilir. Bu gün müasirlik, yenilik axtarışlarında olan neçə-neçə musiqişünaslar, bəstəkarlar illərlə beyinlərində daşıdıqları suallara bu operanın əsrarəngiz sədalarında cavab tapa bilirlər.

"Koroğlu" operası bu gün də Azərbaycan musiqi incəsənətinin şah əsəri olmaqla, qəlbimizdə tükənməz qürur və iftixar mənbəyidir. Bu opera bizim dünya musiqi mədəniyyətinə, bəstəkarlıq sənətinə meydan oxuyan nərəmiz, min səsin içində ucalan, tanınan nəğməmiz, milli məfkurəmizin yüksələn bayrağı, "Azərbaycançılığımızın" qəti və yılmaz təsdiqidir.

**Sərdar FƏRƏCOV,**
**Üzeyir Hacıbəyovun ev-muzeyinin direktoru, bəstəkar**